TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

# ƏTRAF MÜHİT VƏ TƏBİİ EHTİYATLAR KOMİSSİYASI

## İKİNCİ İCLAS

## TÖVSİYƏ QƏRARI

## QLOBAL İQLİM DƏYİŞİKLİYİ: ÜZV ÖLKƏLƏR ÜÇÜN SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİ

***PARLAMENT ASSAMBLEYASI :***

İqlim dəyişikliyinin - müvafiq uyğunlaşma və dəyişilmə ilə əlaqədar fəsadların aradan qaldırılmasına aid milli və regional səviyyədə konseptual və uzunmüddətli siyasət tələb edən mühüm qobal problemlərdən biri olduğunu ***nəzərə alaraq,***

Sülh və təhlükəsizliyə öz töhfəsini verəcək olan risklərin aradan qaldırılması və üzv ölkələrin davamlı inkişafının iqlim dəyişilməsi ilə sıx bağlılığını ***dərk edərək,***

İnsan fəaliyyətinin əhəmiyyətli dərəcədə istixana qazlarının cəmləşməsini artırması və bu artımın təbii istixana effektini gücləndirməsilə əlaqədar olduğundan ***narahat olaraq***,

İqlim dəyişikliyinin qlobal təbiətinin bütün ölkələri onların ümumi, lakin fərqli məsuliyyətləri, imkanları və iqtisadi şəraitinə uyğun olaraq mümkün olan ən geniş əməkdaşlığa, səmərəli və beynəlxalq səviyyədə iştiraka çağırdığını ***təsdiq edərək,***

TÜRKPA üzv ölkələrinin İqlim Dəyişikliyi üzrə BMT-nin Çərçivə Konvensiyası, Kioto Protokolu və eyni zamanda üzv ölkələr tərəfindən qəbul edilmiş BMT ilə əlaqədar müvafiq sənədlərə öhdəliyini yenidən təsdiqləyərək və BMT platforması çərçivəsində qlobal əməkdaşlığı ***diqqətə alaraq,***

Üzv ölkələrdə iqlim dəyişikliyinin əsas aspektlərini müəyyən etmək və müvafiq həll yolu tapmaq zərurətdən ***xəbərdar olaraq,***

**TÜRKPA Üzv Ölkələrin Milli Parlamentlərinə və Hökümətlərinə tövsiyyə edir:**

*a)* həm dövlət, həm də özəl sektorlar tərəfindən maraqlı olan şəxslərin geniş spektrini cəlb edərək, Milli Fəaliyyət Proqramlarını əgər varsa inkişaf etdirməklə iqlimə uyğunlaşmanı ***gücləndirmək***;

b) BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının yardımçı orqanları və Tərəflərinin Konfransları çərçivəsində iqlim dəyişmələri və davamlı inkişafı ilə bağlı olan məsələlər üzrə mütəmadi ***məsləhətləşmələr aparmaq***;

c) üzv ölkələrdə iqlim dəyişmələrinə uyğunlaşma sahəsində tədris və elmi potensialı ***təkmilləşdirmək;***

d) istixana qazları tullantılarının azadılması məqsədilə,külək,su,günəş və geotermal kimi bərpa olunan enerji layihələrinə daha çox ***investisiya qoymaq***;

e) beynəlxalq donor ictimaiyyəti tərəfindən tələblərə uyğun maliyyələşməni təmin edərək, "qaynar nöqtələrdə" iqlim dəyişmələrinə uyğunlaşma ilə bağlı sahə layihələrini ***həyata keçirmək***;

f) iqlim dəyişikliklərinə uyğunlaşma üzrə ən yaxşı təcrübələri payıaşmaq üçün yerli hakimiyyət orqanları, özəl sektor və ictimai təşkilatlar, kütləvi informasiya vasitələri ilə maarifləndirmənin artırılması məqsədilə iqlim dəyişikliklərinə uyğunlaşma üzrə informasiya materiallarını ***hazırlamaq və yaymaq***;

g) iqlim dəyişiklikləri və onun fəsadları ilə bağlı məlumatın işıqlandırılması problemləri üzrə tədbirlər görmək və regional əməkdaşlığı ***möhkəmləndirmək***;

h) enerji məsələləri daxil olmaqla ekoloji mədəniyyətin və təbii ehtiyatların istehlak mədəniyyətinin ***səviyyəsini qaldırmaq***;

i) iqlim dəyişiklikləri ilə bağlı tədqiqat və inkişaf sahəsində beynəlxalq əməkdaşlıq və elmi proqramlara dair məsləhətləri ***təmin etmək***;

j) TÜRKPA üzvü ölkələri arasında təbiətin mühafizəsi və təbii ehtiyatlardan istifadə sahəsində əməkdaşlıq prioritetlərini ***müəyyənləşdirmək***.